Əgər mən gündəlik fərz namazlarını qılıb, Ramazan orucunu tutub, Allahın halalını halal, haramını haram olaraq etiqad etsəm

Cabirdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Bir kişi Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşaraq dedi: Əgər mən gündəlik fərz namazlarını qılıb, Ramazan orucunu tutub, Allahın halalını halal, haramını haram olaraq etiqad etsəm, bunlara başqa heç bir əməl əlavə etməsəm, Cənnətə daxil olaram? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona: "Bəli"- deyərək cavab verdi. Bu zaman kişi: Allaha and olsun ki, bunlara başqa bir əməl əlavə etməyəcəm- dedi.

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu hədisdə bizə, beş vaxt fərz namazı qılıb, nafilə olaraq başqa namaz qılmayan, Ramazan orucunu tutub, nafilə olaraq başqa nafilə oruc tutmayan, halalların halal olduğunu etiqad edib, onları edən və haramların da haram olduğunu etiqad edib, onlardan çəkinən kimsənin Cənnətə girəcəyini bəyan etmişdir.

https://sunnah.global/hadeeth/az/show/65003